**İslam Konfransı Təşkilatı Mədəni və Sosial məsələlər üzrə komissiyası Xocalı faciəsinə dair qətnamə qəbul etmişdir**

İslam Konfransı Təşkilatının yüksək səviyyəli ekspertlər qrupu olan Mədəni və Sosial məsələlər üzrə İslam komissiyasının martın 6-da Ciddədə işini tamamlamış iclasında qəbul olunan qətnamədə 1992-ci ilin fevralında baş vermiş Xocalı faciəsi erməni silahlı qüvvələrinin azərbaycanlı dinc əhaliyə qarşı kütləvi qırğını kimi qiymətləndirilmişdir. Xarici İşlər Nazirliyinin mətbuat mərkəzindən AzərTAc-a bildirmişlər ki, qətnamə İslam Konfransı Təşkilatının dialoq və əməkdaşlıq uğrunda Gənclər Forumu tərəfindən irəli sürülmüş və üzv ölkələr tərəfindən yekdilliklə qəbul edilmişdir.

Sənədə əsasən, foruma qətnamənin müddəalarından irəli gələn əməli işlərin görülməsi tapşırılmışdır.

**Azərbaycan.- 2007.- 8 mart.- S. 6.**